Xalq qəzeti .- 2025.- 5 mart, (№ 49).- S.12.

# Palçıq vulkanları – təbii kəşfiyyatçılar



## *Onlar bizə yerin dərin qatlarının sirlərini pıçıldayır*

**Uzun illər turizm sahəsində çalışan tanışım bir dəfə dedi ki, əcnəbi turistləri ölkəmizdə ən çox maraqlandıran məkanlardan biri də palçıq vulkanlarıdır. Düzünü desəm, bu fikir mənə bir az qəribə gəldi. Görünür, bu unikal təbiət hadisəsini öz gözləri ilə görüb müşahidə aparmağın özəl məqamları var.**

Həmin tanışım belə bir məlumat da verdi ki, Azərbaycan planetimizdə palçıq vulkanlarının geniş yayıldığı region kimi tanınır. Dünyada mövcud olan 2 minə yaxın palçıq vulkanlarının 350-dən çoxu məhz ölkəmizdə yerləşir. Yeri gəlmişkən, palçıq vulkanları daha çox Bakı, Abşeron yarımadasında, Xəzər dənizi akvatoriyasında yayılmışdır.

Beləcə məndə palçıq vulkanları barədə məlumat toplayaraq onları oxucularla bölüşmək arzusu yarandı. Öyrəndim ki, palçıq vulkanları Yerin dərin qatlarındakı palçıq, qaz və su qarışığını yerə sızdıran nadir geoloji hadisədir. Onların özəlliyi bundadır ki, bu vulkanlar ənənəvi olaraq ərimiş lavanı yox, köpürən palçıq hissələrini püskürür.

Yerin altındakı qaz və maye cibləri yuxarıya doğru hərəkət etdikcə, özləri ilə palçıq və çöküntüləri də itələyib üzə çıxarırlar. Bu proses isə sonda insanı ovsunlayan bir görüntünün yaranmasına səbəb olur. Bu prosesi Abşeronun bir neçə guşəsində müşahidə edərək təbiətin möcüzələrinə heyranlığımı gizlədə bilmədim.

Bəli, qeyd etməyə dəyər ki, palçıq vulkanlarının sayına, növlərinə və aktiv fəaliyyətinə görə dünyada Azərbaycan ərazisinə bənzəyən ikinci bir məkan yoxdur. Ölkəmizdəki palçıq vulkanlarının aktivliyi daim dəyişir, onlar arasında müntəzəm olaraq püskürənləri olur. Azərbaycan həm də yeraltı və sualtı palçıq vulkanları ilə məşhurdur və Xəzər dənizi 140-dan çox sualtı obyektə "evsahibliyi" edir. Təkcə Bakı arxipelaqı ərazisində unikal landşaft formalaşdıran vulkan mənşəli 8 ada mövcuddur.

Ölkəmizdəki vulkanlar arasında yer səthinə neft axıdanları da var. Karbohidrogenlərlə birbaşa əlaqəli olan palçıq vulkanlarını dərin kəşfiyyat quyularına da bənzətmək olar. Çünki vulkanlar da müəyyən dərinliklərdə neft yataqlarının olduğunu göstərir, yerin təkində neft və qaz təbəqələrinin hərəkəti haqqında fikirlərin yaranmasına səbəb olur. Vulkanlar neft və qaz bölgələrinin üzərini örtərək daha üst təbəqələrdə qazabənzər metanın toplanmasına şərait yaradır.

Mineral duzlar, üzvi maddələr və mikroelementlərlə zəngin olan vulkan palçığı insan orqanizminə yaxşı təsir göstərməklə müalicəvi xassələrə malikdir. Bu palçıqdan dayaq-hərəkət aparatı, oynaqlar, onurğa, periferik əsəb sistemi, dəri, mədə-bağırsaq traktatı, şəkər diabeti, ateroskleroz və boyun osteoxondrozu kimi xəstəliklərin müalicəsində, daha sonra ginekologiyada, urologiya və kosmetologiyada uğurla istifadə edilir.

Tam qətiyyətlə Azərbaycanı palçıq vulkanları diyarı adlandırmaq olar və bu vulkanlar bizim həm milli, həm də təbii sərvətimizdir. Təəssüf ki, son onilliklərə qədər Bakı və Abşeron yarımadasında yerləşən palçıq vulkanlarına antropogen təsirlərin artması nəticəsində onların əraziləri dağıdılır, orada intensiv inşaat işləri aparılır, vulkanların püskürmə ehtimalı olan zonalarında yaşayış binaları inşa olunurdu.

Palçıq vulkanlarının əhəmiyyətini nəzərə alaraq bu təbiət sərvətlərinin gələcək nəsillərə çatdırılması və respublikamızın təbii irsinin geniş miqyasda təbliğ olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 15 avqust tarixli sərəncamı ilə "Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu" (DTQ) yaradılmışdır. Bundan sonra Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2011-ci il 29 sentyabr tarixli sərəncamı ilə 12 min 323 hektar sahədə 43 palçıq vulkanının ərazisi qoruq elan edilmişdir. DTQ-un əsas vəzifəsi vulkanik landşaftın, təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətini qoruyub saxlamaq, elmi tədqiqatlara yardım etmək məqsədilə ekoloji monitorinqi həyata keçirməkdir.

Sonda belə bir faktı da qeyd etməyə dəyər ki, Abşeron rayonu ərazisində Bakıdan saat yarım məsafədə Palçıq Vulkanları Turizm Kompleksi yaradılıb ki, burada çox sayda bir-birindən fərqli eksponatlar nümayiş etdirilir. Kompleksdə yerli və əcnəbi turistlərin istirahət etmələri üçün hər cür şərait yaradılıb.

***M.HACIXANLI***
***XQ***